*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 dekabr 2019-cu il № 100 (2417) Qiyməti 30 qəpik


# Güclü ordu güclü dövlət deməkdir

## Hava Hücumundan Müdafiə bölmələri döyüş atışları icra edib



*Güclü ordu güclü dövlət deməkdir. Bu gün sürətlə inkişaf edən Azərbaycan Ordusu ölkənin inkişaf tempinə uyğun şəkildə formalaşır, güclənir və qüdrətlənir. Ulu öndər Heydər Əliyev orduya qayğını, hörməti cəmiyyətin, xalqın şərəfli vəzifəsi hesab edirdi: "Müstəqil dövlətin özünün qüdrətli ordusu olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir!".*

Biz bu gün qürur hissi ilə deyə bilərik ki, respublikamızın təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və müdafiəsini təmin etmək, ölkəmizin sərhədlərini qorumaq, ərazi bütövlüyünə, torpaqlarımızın müdafiəsinə nail olmaq üçün Azərbaycanın layiqli ordusu vardır.

Bu gün Heydər Əliyev ideyalarını uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalqımız sabaha böyük inamla baxır.

Həyatımızın bütün sahələrində, o cümlədən ordu quruculuğunda əldə olunan nailiyyətlər göz qabağındadır.

Güclü, qüdrətli ordusu olan hər bir dövlətin müstəqilliyi də əbədi, sarsılmaz və dönməzdir. Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı dövlət qarşısında dayanan prioritet məsələlərdəndir. Ölkəmizdə inkişaf proseslərinin davamlılığını təmin edən başlıca amillərdən biri də qarşıda duran hədəflərin düzgün müəyyən edilməsidir. Müstəqil Azərbaycanın son illər ictimai-siyasi həyatın bütün sahələrində əldə etdiyi uğurlar konkret məqsədlərə yönəlmiş çevik iqtisadi siyasətin nəticəsidir. Bu gün ölkəmizdə digər sahələrdə olduğu kimi, ordu quruculuğunda aparılan islahatlar da uğurla davam etdirilir. Müxtəlif səviyyələrdə səslənən "Azərbaycan Ordusu regionda ən güclü ordular sırasındadır" sözləri bu reallığı təsdiqləyir.

Qazanılan uğurlarda ordumuzda keçirilən, eyni zamanda, beynəlxalq əhəmiyyət daşıyan hərbi təlimlərin də özünəməxsus rolu var. Təlimlər Azərbaycan Ordusunun gücünün əsas göstəricilərindən biridir. Təlimlərdə məqsəd ordumuzun döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə qoşunların döyüşə hazırolma bacarığı, qüvvə və vəsaitlərin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılmasıdır.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Güclü ordu güclü dövlət deməkdir





(Əvvəli 1-ci səhifədə)

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına uyğun olaraq Hava Hücumundan Müdafiə (HHM) bölmələrinin taktiki-xüsusi məşğələləri keçirilib.

Məşğələlər zamanı HHM bölmələri "Buk-MB", "S-125" və "OSA" zenit-raket komplekslərindən döyüş atışları icra ediblər.

Eyni zamanda, bu günlərdə ümumqoşun poliqonunda hərbi birliyin döyüş atışlı gecə təlimi də keçirilib.

Ssenariyə uyğun olaraq təlimə cəlb olunan motoatıcı, artilleriya, zirehli tank və mühəndis-istehkam bölmələri düşmənin gecə vaxtı hücumunun ona müxtəlif istiqamətlərdə cavab zərbələrinin endirilməsi ilə dəf edilməsi və qoşunlarımızın müdafiədən əks-hücuma keçməsi tapşırıqlarını icra ediblər.

Əslində, hərbi təlimlər müharibədəki real döyüşlərin ilkin variantıdır. Belə təlimlərdə qarşıya qoyulan ən çətin hədəflərə çatmaq döyüşlərdə qazanmağın 90-95 faizi deməkdir. Bu arqumentlərə rəğmən demək olar ki, Azərbaycan Ordusu hərbi təlimlərdəki peşəkarlığını və çevikliyini torpaqlarımızın azad olunması uğrunda gedəcək döyüşlərdə tətbiq etsə, Ermənistanın işğalçı ordusu ağır və sarsıdıcı zərbələrə məruz qalacaq.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*23 dekabr 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Aşağı Əskipara, Məzəm, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Ağdam rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*24 dekabr 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Hər hansı xarici ölkəyə məxsus heç bir hərbi təyinatlı vasitə Azərbaycan ərazisində yerləşdirilməyib"

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi son günlər bəzi xarici elektron media resurslarında İsrailə məxsus hərbi təyinatlı vasitələrin guya Azərbaycanda yerləşdirilməsi və bu ərazidən İrana qarşı zərbə endirilməsi barədə yayılan absurd xəbərlərə münasibət bildirib.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a daxil olan məlumatda qeyd olunub: "Bu kimi məlumatlar dezinformasiya və saxta xəbərdən başqa bir şey deyildir. Yayılan məsuliyyətsiz, təxribat xarakterli məlumat qonşularla olan münasibətlərimizə uğursuz şəkildə xələl yetirmək məqsədi güdür.

Bir daha bildiririk ki, hər hansı xarici ölkəyə məxsus heç bir hərbi təyinatlı vasitə Azərbaycan ərazisində yerləşdirilməyib. Bu barədə yayılan məlumatların heç bir əsası yoxdur və yalandır".

*Nümunəvi xidmət*

# "Vətənə xidmətdən qürur duyuram"

*Yadıma nə vaxtsa oxuduğum bir kəlam düşdü: "Hər insan həyatı bir kitabdır. Açılmamış, oxunmamış və vərəqlənməmiş bir kitab". Həqiqətən elədir. İnsan ömrü kitablara çox oxşayır. Nə qədər ki, tanış olub söhbət etməmisən, həmin insanın ömür yollarından xəbərsiz olursan. Elə ki, tanıdın, söhbətləşdin, həmin şəxsin həyat yolu qarşında kitab kimi açılıb vərəqlənir.*



Ön xətdə tanış olduğum müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Elçin Talıbovun həyatı da sanki bir kitabdır. Özü də bənzərsiz bir kitab. Elçin Zəngilan rayonunun Həkəri kəndində dünyaya göz açıb. Ermənilər Həkərini işğal edəndə Elçin ikinci sinifdə oxuyurmuş.

- O günləri güclə xatırlayıram, - baş çavuş ötüb-keçənlərdən ürək ağrısı ilə danışdı. - Onda doqquz yaşım var idi. Yadıma gəlir ki, hamı kimi biz də Araz çayından İran İslam Respublikasının ərazisinə çox çətinliklə keçdik. Ağır, gərgin və keşməkeşli günlər yaşadıq. Orta təhsilimi başa vurub Azərbaycan Beynəlxalq Universitetinə daxil oldum. Sonra hərbi xidmətə çağırıldım. Ordu sıralarından tərxis olunandan sonra tikintidə ixtisasıma uyğun işləsəm də, vətənpərvərlik hissləri məni çəkib ordu sıralarına gətirdi. Xeyli müddətdir xidmətdəyəm. Çoxdan bəridir zabit olmaq arzusu ilə yaşayıram. İstəyimi reallaşdırmaq üçün bu yaxınlarda qəbul kursuna üz tutdum. Təəssüf ki, sınaqlardan keçə bilmədim. Zabit olmaq üçün hazırlığımı daha da artırmalıyam. Sınaqdan keçməsəm də, həvəsdən, ruhdan düşməmişəm. Yenə də oxuyuram, məşqlərdən qalmıram. Ümid edirəm ki, yaxın vaxtlarda zabit olub, arzuma çatacam. Dünyaya göz açdığım Həkəri kəndinə dayandığım səngər çox da uzaqda deyil. İllərdir doğma ocaqlarımızın həsrətini çəkə-çəkə yaşayırıq. Günlərin birində dədə-baba yurduna qayıdacağımıza inanırıq. Əmim Elmdar Abışov birinci Qarabağ müharibəsində iştirak edib. Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub. Dayılarım da vuruşublar. Bu gün mən hərbi xidmətdəyəm. Doğmalarımın şərəfli döyüş yollarını davam etdirirəm. Qürurlanıram ki, ordumuz əvvəlki illərdəki ordu deyil. İndi güclü və qüdrətliyik. Biz bu gün təkcə silahlarla deyil, həm də düşmənə nifrətlə, qisas hissi ilə silahlanmışıq. Döyüş və mənəvi-psixoloji hazırlığımız yüksək səviyyədədir. İnanıram ki, bu güclə, bu hazırlıqla torpaqlarımızı tez bir zamanda işğaldan azad edəcəyik. İllərdən bəri həsrətində olduğumuz doğma ocaqlar bizi isti qoynuna alacaq.

Baş çavuş Elçin Talıbov danışdıqca diqqət yetirirdim: baxışları Həkəriyə sarıydı...

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar ilə təlim-metodiki toplantı

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2019-cu il üçün təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində birlik, birləşmə, xüsusi təyinatlı təhsil müəssisələrinin, qoşun qismlərinin və əlahiddə bölmə komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinlərinin, eləcə də psixoloqların təlim-metodiki toplantısı keçirildi.*



Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi.

Tədbirdə çıxış edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Ali Baş Komandanımızın Silahlı Qüvvələr qarşısında qoyduğu mühüm vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində ordumuzun döyüşə hazırlıq səviyyəsinin, döyüş qabiliyyətinin, şəxsi heyətin vətənpərvərlik ruhunun artmasından, ölkəmizin dinamik sosial-iqtisadi inkişafının ordu quruculuğu sahəsində görülən işlərə müsbət təsirindən, həyata keçirilən irimiqyaslı islahatların ordumuzun döyüş və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə səbəb olmasından danışdı və 2020-ci ildə müvafiq sahədə görüləcək işlər barədə Müdafiə nazirinin tapşırıqlarını tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Nazir müavini çıxışında şəxsi heyətin Vətənə məhəbbət, dövlətə sədaqət ruhunda tərbiyə olunması məsələsinə də toxundu: "Bu gün Azərbaycan Ordusunda vətənpərvərlik tərbiyəsi birinci yerdə durur və daim bu səviyyədə də saxlanılmalıdır. Hər bir əsgər, hər bir zabit Vətən uğrunda lazım gələrsə, gözünü qırpmadan canından keçməyə hazır olmalıdır. Bunun üçün şəxsi heyətlə fərdi işə daha çox diqqət yetirilməlidir. Eyni zamanda, sağlam hərbi kollektivlərin formalaşması üçün elə bir mühit yaradılmalıdır ki, istər əsgər olsun, istərsə də zabit xidmət etdiyi hərbi hissə ilə fəxr etsin, onun nüfuzunu qaldırmaq naminə əlindən gələni əsirgəməsin. Orduda təbliğat və təşviqat məsələlərinə, ideoloji işin aparılmasına, mənəvi-psixoloji təminatın yüksəldilməsinə də xüsusi diqqət yetirilməlidir. Bunun üçün ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar bilikli olmalı, öz peşəsini sevməli, bu peşənin sirlərinə dərindən yiyələnməli və şəxsi nümunə olmalıdırlar ki, nəzərdə tutulan sistemi yarada bilsinlər. İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinləri və digər zabitlər də postda olan əsgərlərlə maraqlanmalı, onlarla bir yerdə xidmətə çıxmalı, orada olan şəxsi heyəti dərindən öyrənməlidirlər. Bu onların vəzifə borcudur."



Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev onu da diqqətə çatdırdı ki, arxada qalan bu il ərzində Müdafiə Nazirliyinin tabeliyində olan bölmələrdə mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr işi Müdafiə nazirinin, o cümlədən Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisinin sərəncam, əmr və göstərişlərinə, eyni zamanda, Azərbaycan Respublikasının hərbi qanunvericilik aktlarının tələblərinə uyğun olaraq təşkil olunub və keçirilib.

Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev azərbaycançılıq ideologiyası əsasında hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji hazırlıq, hərbi intizamın yüksəldilməsi və digər istiqamətlərdə görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış etdi.

General-mayor Rasim Əliyev çıxışı zamanı hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji hazırlıq, hərbi intizamın yüksəldilməsi və digər istiqamətlərdə planlaşdırılan tədbirlərə də toxundu: "İl ərzində hərbi hissələrdə bu istiqamətlərdə planlı yoxlamalar aparılaraq lazımi köməklik göstərilib. Bir çox hərbi hissələrdə əyani təbliğat işləri görülüb, çoxlu sayda kütləvi vətənpərvərlik tədbirləri təşkil edilərək keçirilib. "Heydər Əliyev irsini öyrənirik" silsilə məşğələlərində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, ordu quruculuğunda əvəzedilməz xidmətləri geniş təbliğ edilib. Psixoloqlara, xüsusən də təlim hərbi hissələrində təlim-metodiki məşğələlər keçirilib, onların praktiki və nəzəri bilikləri artırılıb. Bununla yanaşı, Müdafiə Nazirliyinin rəhbərliyi altında digər nazirliklərin və icra hakimiyyətlərinin iştirakı ilə Aprel döyüşlərinin ildönümü ilə əlaqədar xalqla ordunun birliyini nümayiş etdirən və gənclərdə hərbi vətənpərvərliyi tərbiyə edən rayon və şəhər miqyaslı kütləvi vətənpərvərlik tədbirləri və yürüşlər keçirilib, həmçinin şəhid olmuş hərbi qulluqçuların anım mərasimləri təşkil edilərək ailələri ziyarət olunub. Eyni zamanda, "Açıq qapı" günlərində valideynlərin şəxsi heyətlə görüşü təşkil edilib, ziyarətçilərin xidmət və inzibati binalar, əsgər yataqxanaları və yeməkxanaları ilə tanış olmalarına şərait yaradılıb".

İdarə rəisi qeyd etdi ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırıq və göstərişlərinə əsasən, hərbi qulluqçularla fərdi tərbiyə işi ötən il ərzində gücləndirilib: "Bu məqsədlə ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin, psixoloqların səylərinin, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə idarənin zabitlərinə və birlik komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinlərinə müvafiq göstərişlər verilib və bu sahədə işlərin gücləndirilməsi tapşırılıb."

General-mayor Rasim Əliyev 2020-ci tədris ili ərzində ideoloji iş, hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji təminat, hərbi intizamın yüksəldilməsi, hərbi qulluqçuların asudə vaxtının düzgün təşkili, sosial müdafiəsinin gücləndirilməsi və digər sahələrdə görüləcək işlər və qarşıda duran vəzifələrdən danışdı. İdarə rəisi çıxışında Silahlı Qüvvələrin Ali Baş Komandanının ordu qarşısında qoyduğu tapşırıqlara müvafiq olaraq hərbi qulluqçuların Vətənə, dövlətə, xalqa və Hərbi anda sədaqət ruhunda tərbiyə edilməsi sahəsində əsas məsuliyyətin hərbi hissələrdə ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin üzərinə düşdüyünü xüsusi qeyd etdi. "2019-cu ildə də ölkəmizin sosial-iqtisadi inkişaf dinamikası artıb, ordu quruculuğunda görülən işlər



öz müsbət nəticəsini verib, həyata keçirilən irimiqyaslı islahatlar ordumuzun döyüş və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə səbəb olub."

Tədbirdə birlik, birləşmə, xüsusi təyinatlı təhsil müəssisələrinin, qoşun qismlərinin və əlahiddə bölmə komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinlərinin Azərbaycan Ordusunda tərbiyə işinin təkmilləşdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı səviyyəsinin artırılması, hərbi qulluqçuların milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi, gənclərdə hərbi xidmət nüfuzunun yüksəldilməsi, hər bir gənc döyüşçünün müqəddəs amal uğrunda mübarizə aparmasının mahiyyətini dərindən dərk etməsi və psixoloji təminatı mövzularında məruzələri dinlənildi.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılovun "Azərbaycan Ordusunda dini radikalizmə qarşı mübarizədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə fəaliyyət", Daxili İşlər Nazirliyinin əməkdaşı polis polkovnik-leytenantı Mübariz Ağayevin "Avtoqəzaların qarşısının alınmasında hüquqi, profilaktik və tərbiyəvi tədbirlərin təşkili", BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlunun "İnformasiya müharibəsi", Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyevin "Azərbaycan Ordusunun nüfuzunun artırılmasında veteran təşkilatları ilə birgə təşkil edilən fəaliyyət" mövzularında məruzələri dinlənildi.

"İlin ən yaxşı psixoloqu" müsabiqəsinin qaliblərindən baş leytenant Reyhan Maniyeva və baş leytenant Aqil Namazov tədbir iştirakçıları ilə təcrübə mübadiləsi apardı və şəxsi heyətə psixoloji yanaşmanın yeni üsullarından danışdılar.

Toplantıda, həmçinin bir çox xidməti mövzular ətrafında da fikir mübadiləsi aparıldı, bələdiyyə və parlament seçkilərinin təşkili və keçirilməsi məsələlərindən danışıldı, 2020-ci ildə Azərbaycan Ordusunda ideoloji işin prioritet istiqamətləri və mənəvi-psixoloji təminatın təşkilinə dair müvafiq tapşırıqlar verildi.

Sonra 2019-cu tədris ili ərzində xidməti vəzifələrinin yerinə yetirilməsində fərqlənmiş hərbi qulluqçular mükafatlandırıldı.

Toplantının yekununda Bakı Bələdiyyə Teatrının və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivləri Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin müəllifi və quruluşçu rejissoru olduğu, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsinə ithaf olunan "Çingiz dastanı" mənzum tamaşası nümayiş etdirildi.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında ingilis dili kursunun növbəti buraxılışı keçirilib

*Silahlı Qüvvələrin Hərbi Akademiyasında ingilis dili kursunun növbəti buraxılışı keçirilib.*



Mərasimdə ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edən Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev məzunları təbrik edərək onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer də kursu müvəffəqiyyətlə başa vuran iştirakçıları təbrik edib, hərbi qulluqçuların ingilis dilini öyrənməsində əməyi olan professor və müəllim heyətinin müstəsna xidmətlərini qeyd edib.

Kursu bitirənlərə diplom və sertifikatlar təqdim olunub.

# Bakıda kibertəhlükəsizlik üzrə kurs keçirilir

Azərbaycan-NATO əməkdaşlığı çərçivəsində, NATO-nun "Sülh və Təhlükəsizlik Naminə Elm Proqramı"nın dəstəyi ilə Bakıda dövlət qurumlarının kiber mütəxəssisləri üçün "Təkmilləşdirilmiş kibermüdafiə üzrə təlim" kursu keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, kursun əsas məqsədi müxtəlif dövlət qurumlarında çalışan kibertəhlükəsizlik mütəxəssislərinin biliklərinin təkmilləşdirilməsi və onların müasir qlobal çağırışlara qarşı hazırlıqlarının artırılmasıdır.

Dekabrın 28-dək davam edəcək tədbirin sonunda kursu müvəffəqiyyətlə başa vuran iştirakçılara sertifikatlar təqdim olunacaq.

# Şagirdlər Heydər Əliyev adına Hərbi Liseylə tanış olublar

*Gələcəkdə zabit olmaq istəyən şagirdlər Heydər Əliyev adına Hərbi Liseylə tanış olublar.*



Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edən namizədlərin liseydə yaradılan şəraitlə tanışlığı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə Əlahiddə Ümumqoşun Ordunun birgə tədbirlər planına əsasən həyata keçirilib. Razılaşdırılmış qrafikə uyğun olaraq məktəblilər noyabrın 22-dən dekabrın 20-dək həftədə bir dəfə Heydər Əliyev adına Hərbi Liseydə olublar. Sonuncu tədbirdə isə Babək rayonunda fəaliyyət göstərən tam orta məktəblərin şagirdləri və hərbi rəhbərləri iştirak ediblər.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, şagirdlər kursantların məişət şəraiti, sağlamlığı və qidalanması ilə tanış olmaqla bərabər, fiziki hazırlıq və tədris məşğələlərində də iştirak ediblər. Atəş hazırlığı sinifində şagirdlərə silahla davranış və atış qaydaları göstərilib.

Heydər Əliyev adına Hərbi Liseylə tanışlıq prosesində ümumilikdə 525 şagird və 54 hərbi rəhbər iştirak edib. Artıq ənənə halını alan bu tədbirlərin növbəti tədris ilində də davam etdirilməsi planlaşdırılır.

# Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə mənzillər təqdim edilib

Dekabrın 20-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Qaradağ rayonunda və Abşeron rayonunun Məmmədli kəndində bir qrup şəhid ailəsinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş vətəndaşlara 30 yeni mənzil təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Qaradağda mənzillərin təqdim edilməsi tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şöbə müdiri Vüqar Behbudov Prezident İlham Əliyevin əhalinin həssas qruplarına xüsusi qayğısının bir təzahürü kimi, şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı işlərinin uğurla davam etdirildiyini bildirib.

Qeyd edilib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2018-ci ildə şəhid ailələri və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil verilib, bu il isə həmin kateqoriyalardan olan vətəndaşlara ötənilkinə nisbətən 50 faiz çox, yəni 934 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Onlardan böyük əksəriyyəti artıq verilib. Təqdim edilən mənzillərdə müasir tələblərə uyğun yaşayış şəraiti yaradılıb.

İmtiyazlı kateqoriyadan olan vətəndaşların nazirlik tərəfindən avtomobillə təminatında da mühüm addımlar atılır. 2018-ci ildə onlara 265 avtomobil verilib, bu il isə 600-ə yaxın avtomobil verilməsi nəzərdə tutulub və indiyədək onlardan da 500-ə yaxın avtomobilin verilməsi artıq təmin edilib. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş vətəndaşlara indiyədək 6465 minik avtomobili verilib.

Yeni mənzillərlə təmin olunan vətəndaşlar onlara göstərilən yüksək qayğıdan, şəhid ailələrinin, müharibə əlillərinin sosial təminatının daim gücləndirilməsindən razılıqla bəhs edib, bu istiqamətdə atılan mühüm addımlara, bu gün isə yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.



Abşeron rayonunda mənzillərin təqdim edilməsi tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov vurğulayıb ki, Prezident İlham Əliyevin tapşırığı əsasında sosial cəhətdən həssas qruplara qayğı daim artırılır. Habelə ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin mənzillə təminatı işləri ildən-ilə gücləndirilir.

Nazir müavini bildirib ki, indiyədək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə verilən mənzil və fərdi evlərin sayı artıq 7208-ə çatıb. Qarşıdakı dövrdə də bu istiqamətdə işlər uğurla davam etdiriləcək.

A.Kərimov ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş vətəndaşların avtomobillə təminatı tədbirlərindən də bəhs edib.

Tədbirdə 2019-cu il ərzində ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin artırılması istiqamətində atılan mühüm addımlar diqqətə çatdırılıb. Cari ildə şəhid ailələrinə, müharibə əlillərinin təqaüdlərinin, ümumən əlilliyi olan şəxslərin müavinətlərinin də orta hesabla 100 faiz artırıldığı bildirilib.

Qeyd edək ki, Abşeron rayonunda mənzillə təmin olunan şəhid ailələri sırasında Azərbaycanın Milli Qəhrəmanı Mətləb Quliyevin ailəsi də var. Milli Qəhrəmanın ailəsinə üçotaqlı mənzil təqdim edilib.

Yeni mənzillərlə təmin olunan vətəndaşlar daim qayğı ilə əhatə olunduqlarına və bu qayğının davamı kimi, müasir tələblərə cavab verən yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# AAHM-in kursantlarının intensiv hazırlığı həyata keçirilir



*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin (AAHM) tədris planı və proqramına uyğun olaraq "Qaraheybət" təlim mərkəzində kursantların intensiv hazırlığı həyata keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səhra şəraitində keçirilən məşğələlər zamanı kursantlar şərti düşmən hədəflərinin aşkar edilərək atəşlə məhv edilməsi, silahlanmadakı müxtəlif silah nümunələrindən istifadə vərdişləri, eləcə də taktiki hazırlıq və hərbi topoqrafiya dərsləri üzrə digər tapşırıqları icra edirlər.

Gələcək zabitlərin hazırlığının təkmilləşdirilməsi məqsədilə keçirilən məşğələlərin sonunda kursantlar əldə etdikləri nəticəyə əsasən qiymətləndiriləcək.

# Vətənə, xalqa sevgi ilə xidmət edirik!

*Müasir standartlar əsasında formalaşan Azərbaycan Ordusu təkcə silah-sursat, texnika baxımından deyil, həmçinin şəxsi heyətin döyüş ruhuna görə də dünya ordularından fərqlənir. Uzağa getmək lazım deyil. Aprel döyüşlərində düşmənin təxribatının qarşısını almaqla kifayətlənməyən vətənpərvər oğullarımız mühüm strateji əhəmiyyətə malik yüksəklikləri düşməndən azad etdi. Qısa müddət ərzində və gücünün cüzi hissəsindən istifadə etməklə Azərbaycan Ordusu şanlı tarix yazdı. Qazanılan qələbə ordumuzda döyüş ruhunun, vətənpərvərlik ruhunun yüksək olduğunun göstəricisi idi. Bu gün ordu sıralarında xidmət edən əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi, habelə onların vətənpərvər ruhda tərbiyə olunmaları ordu rəhbərliyinin diqqət mərkəzində olan və komandir heyətinin üzərinə düşən vacib missiyalardan biridir.*

"N" hərbi hissəsində leytenant Vüsal Allahverdiyevin rəhbərliyi altında ictimai-siyasi hazırlıq məşğələsində iştirak etdik. İlk öncə sinif otağı diqqətimizi cəlb etdi. Geniş sinif otağının divarında məlumat tabloları asılıb, əsgərlərin mütaliəsi üçün kitab guşəsi yaradılıb. Dərs prosesini yaxından izlədikcə, şəxsi heyətin məlumatlı və dünyagörüşünün kifayət qədər olması diqqətimizdən qaçmadı. Məşğələ başa çatdıqdan sonra dərsin rəhbəri leytenant Vüsal Allahverdiyev ilə kəlmələşdik. "Ordu sıralarında xidmət edən gənclərimizin ölkəmizin tarixini bilmələri, Vətənimizin yetişdirdiyi dahi şəxsiyyətlərin, qəhrəman oğulların həyat yolu ilə tanış olmaları, şəxsi heyətin vəzifə borclarını öyrənmələri və dərk etmələri məqsədilə ictimai-siyasi hazırlıq dərsləri keçirilir. İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinləri şəxsi heyətin döyüşə mənəvi-psixoloji cəhətdən hazır olmaları işində məsul şəxslərdir. Qədim dövrdən saysız-hesabsız qəhrəmanlar yetişdirmiş məmləkətimizin bugünkü gənclərinin də ataları kimi vətənpərvər ruhda böyüməsi prosesində komandir olaraq hər birimizin üzərinə vətəndaşlıq borcu düşür. Keçirilən dərslər əsgərlərin həm döyüş ruhuna, həm də mənəvi-psixoloji hazırlığına müsbət təsir edir."



Baş gizir Hafiz Yusifov da ictimai-siyasi hazırlığın vacibliyini vurğuladı. "Hər bir ölkənin taleyi onun gənclərindən asılıdır. Gələcəyimizin memarı olan gənclərimizin intellektual potensialı ölkənin inkişafında, onun çiçəklənməsində mühüm əhəmiyyət kəsb edən amillərdəndir. Bu gün də ordu sıralarında xidmət edən gənc əsgərlərimiz ictimai-siyasi hazırlıq dərslərində ordumuzun yaranması və inkişaf mərhələləri, vətənpərvərlik və qəhrəmanlıq nümunələri olan soydaşlarımız barəsində informasiya bazalarını möhkəmləndirərək "Vətənə sevgi, düşmənə nifrət" hissi ilə xidmət edirlər. Keçirilən dərslərdə əsgərlərimizə milli-mənəvi dəyərlərə, dövlət və dövlətçiliyə sədaqət hissi aşılanır. Bu səbəbdən ideoloji işin tərkib hissələrindən olan ictimai-siyasi hazırlıq dərsinin önəmi çox böyükdür".

Əsgər İlyas Qədirov "Ölkəsinin tarixini bilməyən insan nə uğrunda mübarizə apara bilər ki?" - deyə bizimlə söhbətə başladı. "Öz tarixini bilməyən, ata-babalarımızın bir qarış torpaq uğrunda apardığı mübarizədən xəbəri olmayan biri vətənpərvər ola bilməz. Biz məsuliyyətli vəzifəni yerinə yetirdiyimizin fərqindəyik. Bizə miras qalan torpaq uğrunda döyüşməyə və qalib gəlməyə hər an hazırıq. Komandirlərimizin bizə öyrətdiklərini dərindən mənimsəyir, hərbi biliklərimizi daim artırırıq".

Əsgər Rza Rzazadə ictimai-siyasi hazırlıq dərsindən qazandıqları və öyrəndikləri barədə fikirlərini bizimlə bölüşdü. "Hərbi intizamın möhkəmləndirilməsində, yüksək döyüş və mənəvi-psixoloji keyfiyyətlərin qazanılmasında ictimai-siyasi hazırlıq dərsinin böyük önəmi var. Keçirilən məşğələlərdə xalqımızın və dövlətimizin uzaq və yaxın keçmişi haqqında məlumat bazamızı möhkəmləndirir, hərbi xidmət zamanı üzərimizə düşən vəzifə borclarımızı yaddaşımıza həkk edirik. Həmçinin ictimai-siyasi hazırlıq dərslərində ordumuzun yaranması, bugünkü gücü ilə bağlı zəruri məlumatlar öyrənirik".

Əsgər Murad Məmmədli hərbi hissədə yaradılan şəraitdən məmnunluğunu ifadə etdi. "Hərbi hissədə xidmətimizin təşkili üçün istənilən şərait yaradılıb. Asudə vaxtlarımızın səmərəli keçirilməsi üçün mütaliə edir, "Azərbaycan Ordusu" qəzeti və "Hərbi bilik" jurnalında dərc olunan məqalələri həvəslə oxuyuruq. Növbədə olarkən üzərimizə düşən məsuliyyəti dərindən dərk edir, xidməti düzgün aparırıq. Komandirlərimizin tapşırıqlarının və vəzifələrimizin öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni edirik".

Həmsöhbət olduğum əsgərlərimizin dediklərindən sonra bir daha əmin oldum ki, Azərbaycan əsgəri döyüşə həm təcrübə baxımından, həm də mənəvi-psixoloji cəhətdən hazırdır. Onların hər biri Vətənə, xalqa sevgi ilə xidmət edir, müqəddəs vəzifələrini yerini yetirirlər.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

## Hərbi qulluqçuların mənzillə təmin olunması ilə bağlı qərar qəbul edilib

Dekabrın 21-də Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il 28 dekabr tarixli Fərmanı ilə yaradılmış Komissiyanın növbəti iclası keçirilib.

Maliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin Fərman Azərbaycan Silahlı Qüvvələrində 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuların dövlət vəsaiti hesabına alınmış mənzillərlə təmin olunmasını nəzərdə tutur.

Komissiyanın sədri, Maliyyə naziri Samir Şərifov bildirib ki, hərbi qulluqçuların mənzil təminatı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və nəzarətindədir. Bu tədbirlərin həyata keçirilməsi ilə bağlı hər il dövlət büdcəsinin imkanları daxilində müvafiq məbləğdə vəsait ayrılır.

Komissiyanın iclasında Müdafiə Nazirliyi tərəfindən təqdim olunmuş siyahı əsasında mənzil almaq hüququ qazanan növbəti 763 hərbi qulluqçunun mənzil növbəsinə qəbul olunması qərara alınıb. Qeyd olunub ki, hazırda mənzil növbəsində olan 339 hərbi qulluqçu ilə birlikdə bugünkü iclasın qərarına əsasən, növbəyə qəbul edilən hərbi qulluqçulardan 97 nəfəri də daxil olmaqla cəmi 436 hərbi qulluqçunun mənzillə təmin olunması nəzərdə tutulub.

Bu məqsədlə Mənzil İnşaatı Dövlət Agentliyinin sifarişi ilə inşa edilən Bakı şəhəri, Hövsan Yaşayış Kompleksindən 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına 436 ədəd tam təmirli mənzil alınıb, həmin mənzillərin hərbi qulluqçuların mülkiyyətinə verilməsi və onların adlarına rəsmiləşdirilməsi istiqamətində işlər həyata keçirilir.

Bununla da, bu günədək Komissiya tərəfindən 1721 nəfər hərbi qulluqçunun, Bakı şəhəri daxil olmaqla, respublikanın müxtəlif regionlarında mənzillə təmin olunması ilə bağlı qərarlar qəbul edilib.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikasını və silahları öyrənmək hər bir döyüşçünün borcudur.

**Suallar:**

**1. Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir.**

**2. Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur.**

*Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir*

Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu yaddan çıxarmamalıdır ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olunmayıb, torpaqlarımızın 20 faizi işğal altındadır. Müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. "Silahlı Qüvvələr haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində göstərilir ki, ordu quruculuğunun əsas prinsiplərindən biri yüksək döyüş hazırlığıdır. Hərbi qanunvericiliyə uyğun olaraq, hərbi qulluqçular Azərbaycan Respublikasının mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qorumağa, Hərbi and içməyə, Azərbaycan qanunlarına əməl etməyə, komandir və rəislərin əmrlərini qeyri-şərtsiz yerinə yetirməyə borcludurlar.

Müasir döyüş - qoşunların taktiki fəaliyyətinin əsas forması, bölmələrin müəyyən ərazidə qısa müddət ərzində düşməni məğlub (darmadağın) etmək və digər taktiki tapşırıqları yerinə yetirməsi məqsədilə hədəfə və vaxta görə əlaqələndirilmiş zərbə və manevrdən ibarət müxtəlif hərbi birləşmələrin, hərbi texnika və silahların tətbiq olunduğu mütəşəkkil bir hərbi əməliyyatdır. Döyüş qələbə çalmağın yeganə vasitəsidir. Qələbə düşmənin döyüşdə darmadağın edilməsi və bütün silah növlərinin güclü və dəqiq zərbələri, onların nəticələrindən vaxtında istifadə, birləşmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkəti ilə əldə edilir. Müasir döyüş öz xarakterinə görə ümumqoşun döyüşüdür. Bu döyüşdə əsgərin rolu qat-qat artır. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Ümumqoşun döyüşü tanklardan, piyadaların döyüş maşınlarından (zirehli transportyorlardan), artilleriyadan, hava hücumundan müdafiə vasitələrindən, təyyarələrdən, vertolyotlardan, digər döyüş texnikasından və silahlardan istifadə etməklə döyüşdə iştirak edən bütün qoşunların birgə fəaliyyəti ilə aparılır. Əməliyyatların qətiyyətliliyinin təmin olunmasında şəxsi heyətin yüksək mənəvi-döyüş keyfiyyətləri, onun qələbəyə sarsılmaz inamı, silahları və döyüş texnikasını mükəmməl bilməsi və bacarıqla tətbiq etməsi böyük rol oynayır.

1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə, döyüşçülərimizin texnika və silahlardan bacarıqla istifadə edərək düşmənin zirehli texnikasına, müdafiə qurğularına, canlı qüvvəsinə vurduqları ciddi zərbələrin döyüş müvəffəqiyyətinə təsiri barədə nümunələr çoxdur. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Azərbaycan Ordusu hissələrinin apardıqları bir sıra döyüş əməliyyatlarının müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də bəzən döyüşçülərin onlara həvalə olunmuş silah və texnikaların döyüş imkanlarını pis bilmələri və ona görə də həmin imkanlardan döyüşdə tam istifadə edə bilməmələri idi. Buna səbəb isə döyüşlər apara-apara formalaşan Azərbaycan Ordusunda şəxsi heyəti hazırlamaq üçün kifayət qədər kadrların və lazımi tədris bazasının olmaması, vaxt məhdudluğu idi. 1993-cü ildən etibarən Azərbaycanın dövlət rəhbərliyinin ölkənin müdafiə qabiliyyətini yüksəltmək, ordunun döyüş hazırlığını artırmaq üçün apardığı ardıcıl və məqsədyönlü iş bu gün öz bəhrəsini verir. Bu gün orduda xidmət edən əsgərlərimiz belə bir tarixə söykənir. Azərbaycan əsgərinin üzərinə ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün hər an döyüşə hazır olmaq kimi şərəfli və məsuliyyətli bir vəzifə düşür. Bu vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi isə əsgərlərimizdən yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı olmağı tələb edir. Əsgərin öz xalqının və ölkəsinin tarixini bilməsi, bu gün üzərinə düşən vəzifə məsuliyyətini dərk etməsi onun mənəvi-psixoloji hazırlığında xüsusi əhəmiyyət kəsb edir. Son illərdə ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Azərbaycan Ordusu hazırda dövlət rəhbərliyinin böyük qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsini yaşayır. Biz bu gün müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşuq.

*Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur*

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Azərbaycan Ordusunun sıralarına daxil olan hər bir Azərbaycan vətəndaşı öz Vətəni və xalqı qarşısında təntənəli surətdə Hərbi and içir. Hərbi and hər bir hərbi qulluqçudan;

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsünün vəzifə borcunu dərindən dərk etməsini, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etməsini, Hərbi andın tələblərini yerinə yetirməsini, sayıq olmasını, Azərbaycanın mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini şərəflə və inamla qorumasını, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməməsini;
- hərbi işi vicdanla öyrənməsini, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlamasını, öz vəzifələrini nümunəvi yerinə yetirməsini, hərbi nizamnamələrin tələblərini möhkəm bilməsini və vicdanla yerinə yetirməsini;
- əmr və göstərişləri sözsüz, tez və vaxtında yerinə yetirməsini, igid və intizamlı olmasını, nalayiq hərəkətlər etməməsini və yoldaşlarını da belə hərəkətlərdən çəkindirməsini;
- dövlət sirrini qorumasını, böyüklərə hörmət etməsini, hərbi nəzakət, davranış qaydalarına ciddi əməl etməsini;
- silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilməsini;
- əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirməyi, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olmağı tələb edir.

Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ilin iyun ayında Naxçıvan qarnizonunun şəxsi heyəti ilə görüşərkən dediyi "Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən" sözləri bu gün də Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu üçün ən dəyərli tövsiyədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində hərbi qulluqçuların əsas vəzifələrindən biri kimi müəyyən edilir ki, hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli, onları vicdanla yerinə yetirməli, hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli, ona tapşırılmış silahları, döyüş texnikası və digər texnikanı mükəmməl öyrənməlidir.

Daxili Xidmət Nizamnaməsi tələb edir ki, əsgər (matros) hərbi işi vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın, silahını, döyüş texnikası və digər texnikanı yaxşı bilsin. Bu gün Azərbaycan Ordusunda olan döyüş texnikası və digər texnika, silah-sursatlar ordunun döyüş qabiliyyətini yüksək səviyyədə saxlamağa imkan verir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycanda ordu quruculuğu prosesini öz diqqət mərkəzində saxlayacağını bəyan edərək demişdir: "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır".

Azərbaycan Respublikası Prezidentinin və Müdafiə nazirinin 2019-cu tədris ili üçün Azərbaycan Ordusu qarşısında qoyduqları əsas vəzifələrdən biri də birləşmələrin, hissələrin və bölmələrin döyüş qabiliyyətini yüksəltmək, döyüş tapşırıqlarını yerinə yetirməyə həmişə hazır olmaqdır. Bunun üçün isə hissələrdə intensiv döyüş hazırlığı prosesi təşkil olunmalıdır. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

Ümummilli lider Heydər Əliyev demişdir: "Mən ümidvaram ki, biz ordumuzu gücləndirəcək, döyüş qabiliyyətini yüksəldəcək, müvafiq silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi qoruyacaq və ən əsası, işğal olunmuş torpaqlarımızın azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik".

**Qeyd:** *Hər bir hərbi hissənin öz təyinatına görə döyüş tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər texnika və silahlara, sursata malikdirlər. İctimai-siyasi hazırlıq dərsində öyrənilən bu mövzu hərbi qulluqçuların onlara həvalə olunmuş döyüş texnikasından, digər texnikadan və silahlardan bacarıqla istifadə etmələri üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da artırmağa, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, ərazi bütövlüyünün bərpası və müstəqilliyimizin təmin olunmasında məsuliyyətlərini şüurlu surətdə dərk etməsi üçün planlaşdırılır və keçirilir.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Azərbaycanın Belarusdakı hərbi attaşelik aparatının əməkdaşları Milli Qəhrəmanımızın anasını ziyarət ediblər

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Belarus Respublikasındakı hərbi attaşesi polkovnik Elşən Rəhimov və onun köməkçisi polkovnik-leytenant Aydın Rəhimov ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olan, əslən belaruslu, Azərbaycanın Milli Qəhrəmanı mayor Anatoli Davidoviçin Slutsk şəhərində yaşayan anası Kima Davidoviçi Yeni il bayramı ərəfəsində ziyarət ediblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qəhrəmanın anasına Müdafiə nazirinin Yeni il təbriki çatdırılıb və qəhrəmanın anasının ölkə rəhbərliyinin daim diqqət mərkəzində olduğu xüsusi vurğulanıb.

Milli Qəhrəmanımızın məzarı ziyarət olunub, xatirəsi ehtiramla yad edilib.

Hərbi attaşelik aparatının əməkdaşları K.Davidoviçin evində aparılan təmir işləri ilə tanış olub, çay süfrəsi arxasında onun səhhəti və problemləri ilə maraqlanıb, eləcə də A.Davidoviçin qəhrəmanlığı, gənclik və xidmət illərini xatırlayıblar. Vurğulanıb ki, Milli Qəhrəmanın xatirəsi hər iki ölkədə daim ehtiramla yad olunur və bundan sonra da Azərbaycan xalqının qəlbində əbədi qalacaqdır.

Qəhrəmanın anası da öz növbəsində oğlunun xatirəsinə göstərilən ehtirama, eləcə də özünə yetirilən diqqət və qayğıya görə dövlətimizin başçısına, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyinə, ölkəmizin Belarusdakı səfirliyi və hərbi attaşelik aparatının əməkdaşlarına minnətdarlığını bildirib.



## “Qarabağ naminə danış” videoçarxının təqdimatı olub

Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatında "Qarabağ naminə danış" adlı videoçarxın təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, erməni işğalını və erməni yalanını ifşa edən videoçarxın təqdimatında çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, deputat Məlahət İbrahimqızı deyib ki, artıq otuz ilə yaxındır təcavüzkar Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayır. Dünyada mövcud olan bütün beynəlxalq təşkilatlar, eləcə də nüfuzlu ölkələr tərəfindən Ermənistanın işğalçılıq siyasətini təsdiq edən, onu pisləyən və qeyd-şərtsiz işğala son qoyulmasını tələb edən sənədlər qəbul edilib. Çox təəssüf ki, bu günədək işğal davam edir. Hər bir azərbaycanlı bu problemin həllinə töhfə verməli, Ermənistanın təcavüzkar siyasətini pisləməlidir. Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatı ardıcıl olaraq erməni işğalının beynəlxalq aləmdə ifşası ilə əlaqədar müxtəlif layihələr həyata keçirir. "Qarabağ naminə danış" adlı videoçarx da məhz bu məqsədə xidmət edir.

*Gənc zabitlərimiz*

# “Biz qələbə qazanacağıq”

*Vətənini müdafiə edənlərin sıralarında olmağı özünə övladlıq və vətəndaşlıq borcu bilən leytenant Fətəli Manafov Neftçala rayonunda dünyaya göz açıb. Manafov hələ uşaq yaşlarında xəyallarında özünü zabit kimi canlandırırdı. Məktəbdə də, yaşıdları ilə söhbətlərində də, o, bu arzusundan danışırdı.*



Orta məktəbi bitirdikdən sonra Fətəli Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil alır. Təhsilini müvəffəqiyyətlə başa vurur. Müvafiq sənədləri toplayıb Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə təqdim edir. İllərdir zabit olmaq arzusu ilə yaşayan Fətəli “Ehtiyat zabit hazırlığı” kursunu uğurla bitirir. Yuxarı komandanlıq tərəfindən təsdiq edilmiş təyinat vərəqəsini alaraq, düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdən birində xidmətə başlayır.

Zabit olmasından qürur duyan Fətəli Vətəninə, hərb sənətinə olan sevgisini hər zaman hər şeydən üstün tuturdu.

İlk günlərdən çalışır ki, xidməti ilə digər zabit yoldaşlarından seçilsin və nümunəvi olsun. Söhbət zamanı bildirdi ki, davamlı olaraq şəxsi heyətə məşğələlər keçirik. “Əsgərlərimiz nizam-intizam qaydalarını dərindən mənimsəyir, döyüş, atəş, fiziki və digər hazırlıqlarını yüksək səviyyəyə çatdırırlar. Biz fəxrlə deyə bilərik ki, Ali Baş Komandanımızın və Müdafiə nazirimizin diqqət və qayğısı sayəsində ordumuz regionun ən güclü ordusuna çevrilib. Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordularından biridir. Ordumuzda aparılan islahatlar göz önündədir. Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə orduda məqsədli islahatlar həyata keçirilməkdədir. Son illərdə neçə-neçə müasir hərbi hissə tikilərək şəxsi heyətin istifadəsinə verilib, hərbi qulluqçulara rahat, əlverişli şərait yaradılıb. Şəxsi heyətin xidmət şəraiti daha da yaxşılaşır. Bunlar da şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının artırılmasında vasitədir.”

- Hər bir hərbçi xidməti vəzifələrini düzgün yerinə yetirir və xidmətini düzgün təşkil edir. Qarşımızda çox mühüm bir vəzifə - torpaqlarımızın düşmən tapdağından azad edilməsi dayanır. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün Ali Baş Komandanın döyüş əmrini qüdrətli ordumuz qələbəylə tamamlayacaq.

"Azərbaycan əsgəri qələbə qazanacaq! Əsgərlərimiz inamımızdır", - leytenant Fətəli Manafov belə dedi.

Bu, inamdı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə parlamenti Liviya ilə hərbi əməkdaşlığa dair qanun layihəsini təsdiqləyib



Türkiyə Böyük Millət Məclisi Liviya hökuməti ilə hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığa dair qanun layihəsini təsdiqləyib.

Qanun layihəsi 125 səsə qarşı 269 səslə qəbul olunub.

Qeyd edək ki, Türkiyə ilə Liviya arasında Aralıq dənizindəki su sərhədlərini müəyyən edən anlaşma imzalanıb. Aralıq dənizində su ərazisi olan digər dövlətlər buna etiraz etsələr də, Türkiyə və Liviya mövqelərində israrlıdır. Məsələnin digər tərəfi isə Aralıq dənizində karbohidrogen ehtiyatlarının axtarışı ilə bağlıdır. Türkiyə beynəlxalq hüquqa əsasən özünün milli sektoru hesab etdiyi ərazidə kəşfiyyat-axtarış işlərini davam etdirir.

### İraqda terror aktı nəticəsində dörd polis əməkdaşı həlak olub



İraqın Salah əd-Din əyalətində İŞİD terror qruplaşmasının polis məntəqəsinə hücumu nəticəsində dörd polis əməkdaşı həlak olub, bir nəfər yaralanıb.

Bu barədə İraq təhlükəsizlik qüvvələrinin yaydığı bəyanatda bildirilir.

Bəyanatda hücum edən terrorçunun zərərsizləşdirildiyi qeyd olunur.

### Böyük Britaniyanın Baş naziri Estoniyaya səfər edib



Böyük Britaniyanın baş naziri Boris Conson Miladdan əvvəl Estoniyaya səfər edib.

Baş nazir NATO-nun Estoniyadakı missiyasına ziyarəti zamanı Tapa hərbi bazasında xidmət edən 850 ingilis əsgərlə Milad yeməyinə qatılıb.

Daha sonra baş nazir Estoniyalı həmkarı Yuri Ratas ilə görüşüb.

Qeyd edək ki, Estoniyadakı ingilis əsgərləri Fransa və Danimarka hərbçiləri ilə birlikdə NATO döyüş qrupuna rəhbərlik edirlər.

### Donald Tramp 2020-ci il üçün rekord hərbi büdcəni imzalayıb



ABŞ Prezidenti Donald Tramp 2020-ci ildə hərbi məqsədlər üçün 738 milyard dollar ayrılmasını nəzərdə tutan müdafiə büdcəsini imzalayıb. Bu, Birləşmiş Ştatlar tarixində rekord hərbi büdcədir.

Senat tərəfindən təsdiqlənən büdcəyə "Şimal axını 2" və "Türk axını" qaz kəmərləri layihəsinin reallaşdırılması ilə məşğul olan kompaniyalara qarşı sanksiyalar da daxil edilib.

Sənədə əsasən, Pentaqonun baza ehtiyacları üçün 635 milyard dollar ayrılır. Vəsaitin 71,5 milyard dolları Əfqanıstan, Suriya, Yəmən və başqa ölkələrdə antiterror əməliyyatlarının davam etdirilməsinə, 31,5 milyard dolları isə nüvə silahının döyüş qabiliyyətinin saxlanmasına və onun modernləşdirilməsinə, həmçinin digər hərbi ehtiyaclara yönəldilir.

Büdcədə ABŞ-da yeni qoşun növünün - kosmik qoşunlarının yaradılması və Ukraynaya 300 milyon dollar həcmində yardım ayrılması da nəzərdə tutulub.

Qeyd edək ki, Birləşmiş Ştatların hazırkı büdcəsi əvvəlkindən 3,1 faiz çoxdur.

**AZƏRTAC-ın materialları əsasında**

Fiziki hazırlıq

# “Hər bir əsgər hazırlıqlı olmalıdır”

*Bu gün ordumuzun şəxsi heyətinin döyüş qabiliyyətinin artırılmasında idmanın rolu böyükdür. Hər bir əsgərin fiziki hazırlığı onun hərbi vərdişləri hansı səviyyədə mənimsədiyinin göstəricisi kimi qəbul olunur. Hərbi qulluqçuların fiziki hazırlığı daim diqqət mərkəzində saxlanılmaqla, ordu-idman əlaqələrinin möhkəmlənməsi önə çəkilir. Hərbi hissələrimizin maddi-texniki təminatında ən müasir idman avadanlıqları, qurğuları yer alır. Yeni tikilən hərbi şəhərciklərin ərazilərində idman meydançaları salınır və həmin avadanlıqlar, qurğular orada quraşdırılıb şəxsi heyətin istifadəsinə verilir.*



Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində də geniş, müasir idman meydançası tikilib. Burada şəxsi heyətin fiziki hazırlığı üçün hər bir şərait yaradılıb. Onların fiziki hazırlıq saatında məşq etməsi üçün ayrılan idman meydançası lazımi avadanlıqlarla təchiz olunub. Biz hərbi hissədə olarkən şəxsi heyətin digər hazırlıqları ilə yanaşı, fiziki hazırlığı ilə də maraqlanırıq. Öyrənirik ki, şəxsi heyət fiziki hazırlıq dərsindədir.

Əsgərlər meydançada yerləşdirilmiş müasir idman qurğularında - paralel qollarda və turnikdə fiziki hazırlıqlarını artırmaqla məşğul idilər. Şəxsi heyət verilən tapşırıqları məharətlə, yorulmadan yerinə yetirir, cəld, çevik hərəkətlərlə idman vərdişlərini artırırdılar.

Şəxsi heyətə fiziki hazırlıq dərsini baş leytenant Ziya Quliyev keçirdi. Döyüş hazırlığında idmanın vacib olduğunu deyən gənc zabit bildirdi ki, fiziki hazırlıqlı əsgər təlimlərdə verilən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gələcək. "Əgər əsgər daima idmanla məşğul olarsa, deməli, o istənilən təlim və məşğələlərdə döyüş tapşırıqlarını lazımi səviyyədə yerinə yetirə bilər. İllərdir qazandığımız təcrübə bunu deməyə əsas verir. Bölmədə peşəkar idmançı əsgərlər xidmət edirlər. Bu əsgərlər təlim-məşq toplanışları zamanı xüsusi fəallıqları ilə seçilirlər. Bir sözlə, demək istəyirəm ki, fiziki cəhətdən möhkəm olan əsgər yüksək döyüş hazırlığına malikdir. Hər bir əsgər hazırlıqlı olmalıdır."

"Ümumiyyətlə, əsgərlərimiz fiziki hazırlıq dərslərində daha çox hansı idman şərtlərini yerinə yetirməklə məşğul olurlar?" sualımızı zabit Ziya Quliyev cavablandıraraq dedi: "Şəxsi heyət hazırlıq prosesində tələb olunan normativləri yerinə yetirməyə çalışır. Onlar əsasən, turnikdə dartınaraq əzələlərini möhkəmləndirməklə, paralel qollarda güclərini sınamaqla idman vərdişlərinə yiyələnirlər. Ordumuzda yüksək fiziki hazırlığa malik əsgərlərimiz çoxdur. Onlar orduda keçirilən hərbi idman oyunlarına cəlb olunur, yarışlarda fəal iştirak edir, yüksək nəticələr qazanırlar. Əlbəttə, əldə olunan qələbələr hərbi hissəmizin adına yazılan uğurlardır."

Şəxsi heyətin fiziki hazırlıq saatını biz də maraqla izlədik. Hazırlıqlı əsgərlərdən Elmir Hüseynov, Səməd Ağazadə, Elşən Cəfərov, Elçin Batayev komandirin bugünkü dərsdə nəzərdə tutduğu normativləri uğurla yerinə yetirdilər.

Əminliklə deyə bilərik ki, ordu idmanına göstərilən yüksək diqqət və qayğı hərbi qulluqçularımızın fiziki hazırlığının lazımi səviyyədə olmasının bariz nümunəsidir. Unutmayaq ki, bu gün idmanda qazanılan qələbə sabah döyüşdə reallaşacaq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

Hərbi texnikalar, silahlar

# Zirehli FNSS Pars döyüş maşını



Türkiyənin FNSS Pars çoxməqsədli zirehli döyüş maşını Amerika-Türkiyə FNSS hərbi-sənaye konsorsiumu tərəfindən hazırlanıb və istehsal olunur. Döyüş maşını rəsmi olaraq 2005-ci ildə nümayiş olunub və 2012-ci ildən istismardadır. Zirehli maşının təkər formulası 8x8-dir. Onun daha çox ağır və yüngül variantları da mövcuddur. Hazırda istehsal olunan maşınlar dəniz piyadalarının, quru qoşunlarının silahlanmasına qəbul edilib. Pars zirehli döyüş maşınının çəkisi 26 ton, heyəti 2 nəfər və 11 nəfər desantdan ibarətdir. Pars zirehli döyüş maşınının gövdəsinin uzunluğu 7970 mm, eni 2820 mm, hündürlüyü isə 2350 mm-dir. Döyüş maşını güllə və mərmi əleyhinə möhkəm zirehlənib. Silahlanmasına 12,7 mm-lik pulemyot daxildir. Mühərrikinin növü TSD 2015 və həcmi 524 at gücündədir. Maşının şose yolda sürəti saatda 100 km, ehtiyat hərəkəti isə 700 km təşkil edir. Saatda 8 kilometrə qədər üzməyə qadirdir. Kəsişmə yerlərdə isə ehtiyat hərəkəti 350 kilometrdir. Onun asılqanının növü pnevmatikdir. Pars zirehli döyüş maşını üzə və bir çox maneələri dəf etməyə qadirdir.



FNSS Pars zirehli döyüş maşını heyəti dairəvi olaraq 14,5 mm-lik zirehdeşən güllələrdən və 7,62 mm-lik zirehdeşən döyüş sursatlarından qorumağı təmin edir. Maşının gövdəsi elə inşa edilib ki, gövdənin və təkərlərin altında partlayan 6 kiloqram trotilli mina partlayışından heyəti qoruya bilir.

FNSS Pars döyüş maşınının PDM versiyası FNSS firması tərəfindən hazırlanan 25 mm-lik M242 avtomat top və qoşa 7,62 mm-lik pulemyotla təchiz edilmiş "Şarpşuter" dairəvi fırlanan güllə ilə silahlanması da nəzərdə tutulub. Topun döyüş dəsti 380 ədəd mərmidən ibarətdir və atəş tezliyi dəqiqədə 200 atışdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan idmançısı kəmər güləşi üzrə dünya çempionu olub



Dekabrın 23-də Qazaxıstanın paytaxtı Nur-Sultanda kəmər güləşi üzrə dünya çempionatı keçirilib.

Mundialda 100 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Camal Feyziyev birinci görüşündə Çin idmançısını məğlub edib. Qırğızıstan təmsilçisini təmiz qələbə ilə üstələyən idmançımız yarımfinalda özbəkistanlı rəqibinə qalib gəlib. C.Feyziyev finalda İran təmsilçisini udaraq dünya çempionu adını qazanıb.

Qeyd edək ki, çempionata 30 ölkədən 200 idmançı qatılıb.

## Azərbaycan ağırlıqqaldıranı Qətər Beynəlxalq Kubokunun qalibi olub



Azərbaycan ağırlıqqaldıranı Boyanka Kostova VI Qətər Beynəlxalq Kubokunun qalibi olub.

"Tokio-2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakterli yarışda 59 kiloqram çəki dərəcəsində mübarizə aparan yığmamızın üzvü toplam 221 kiloqram (101+120) nəticə ilə bütün rəqiblərini qabaqlayıb.

## Sərbəst güləşçilərimiz Dağıstanda 5 medal qazanıblar



Dağıstanın Qarabudaqkənd rayonunda Olimpiya çempionu Məhəmməd-Həsən Abuşevin şərəfinə sərbəst güləş üzrə açıq turnir keçirilib.

23 yaşadək güləşçilər arasında keçirilən yarışda Olimpiya çəki dərəcələri üzrə mübarizə baş tutub.

Turnirdə gənclərdən ibarət yığmamızın məşqçiləri Rövşən Hacıyev və Nazim Əlicanovun rəhbərliyi altında millimizin bir neçə üzvü qüvvəsini sınayıb. Onlardan beşi fəxri kürsüyə qalxıb. Belə ki, Davud İbrahimov (65 kq) bütün rəqiblərinə qalib gəlib. Saqadulla Ağayev (86 kq) gümüş, Şahin Muxtarov (57 kq), Aydın Əhmədov və İslam Abuyev (hər ikisi 125 kq) isə bürünc medal qazanıblar.

## Şəhriyar Məmmədyarov “Grand Prix 2019” seriyasının yekununda dördüncü olub



Şahmat üzrə "Grand Prix 2019" yarışları başa çatıb.

Şahmatçımız Şəhriyar Məmmədyarov "Grand Prix 2019" seriyasından olan yarışların yekunlarına görə 10 xalla 4-cü yerdə qərarlaşıb. Təmsilçimiz ən yaxşı nəticəni Qran-Pri seriyasının Riqa mərhələsində qalib olmaqla göstərib. Qran-Pri seriyasının qalibi rusiyalı şahmatçı 20 xalla Aleksandr Qrişuk olub. İkinci yeri Rusiyanın digər təmsilçisi, İsrailin QüdsYerusəlim şəhərində keçirilmiş seriyasının dördüncü mərhələsinin qalibi Yan Nepomnyaşi tutub. Hər iki şahmatçı iddiaçılar turnirinə vəsiqə əldə ediblər.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgərlər İsmayılov Arif Gülbala oğluna 2011-ci ildə, Şərifov Cəlil Pənah oğluna 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1036
Nüsxə 3950